*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 340-346*

https://doi.org/10.62837/2025.6.340

**ŞƏBNƏM HAQVERDIYEVA**
***AMEA Folklor İnstitutunun əməkdaşı***

# BÖYÜK FOLKLORŞÜNAS, GÖRKƏMLİ ZİYALI SEYFƏDDİN QƏNİYEV

*"Könül almağa çalış, zərifləri qoru, onlar elə kimsələrdir ki, xalqdan heç bir qazancları yoxdur".*

*Cəlaləddin Rumi*

**Xülasə**

Azərbaycan folklorşünaslığının keçib gəldiyi tarixi yolda həmişə xatırlanacaq bir ad var, professor Seyfəddin Qəniyev adı. Bütünlükdə canlı fəaliyyəti, gördüyü gərəkli işlərlə xalqın milli-mənəvi dəyərlərinə sahib durmaq missiyası ilə yaşadı. Şirvan folklor mühitinin bilicisi olaraq adını folklorşünaslığın tarixinə yazdı. O, "ayağına dəmir çarıq geyib, əlinə dəmir əsa alıb" xalqın zəngin mənəvi sərvətini toplayıb kitablaşdırmağa çalışan böyük folklorşünaslar nəslinə mənsubdur. Gördüyü işlərin miqyasını heç nə ilə ölçmək, heç kimlə müqayisə etmək mümkün deyil. Belə işlər ancaq və ancaq vətən, xaql sevgisi, vurğunluğu ilə yaşamağın sayəsində mümkündür. Apardığı toplama işləri, tərtibləri, eləcə də mühitin folklor özünəməxsusluğu baxımından araşdırmaları onun yaradıcı fəaliyyətinin ana axarını müəyyənləşdirir. Mif, əfsanə, rəvayət, dastan, aşıq söyləmələri, ustad sənətkarların zəngin yaradıcılıq ənənələri folklorşünas alimin tədqiqatlarında mühit səviyyəsində sistemli şəkildə açıqlanır.

**Açar sözlər**. Seyfəddin Qəniyev, Şirvan aşıq mühiti, ustad aşıqlar, Şirvan ifaçılıq ənənələri və s.

# GREAT FOLKLORE SCIENTIST, OUTSTANDING INTELLECTUAL SEYFADDIN GANIYEV

**Shabnam Hagverdiyeva**

*"Try to win hearts, protect the gentle, they are those who have no profit from the people."*

*Jalaleddin Rumi*

**Summary.** There is a name that will always be remembered on the historical path of Azerbaijani folklore studies, the name of Professor Seyfaddin Ganiyev. He lived with the mission of maintaining the national and spiritual values of the people with his lively activity and the necessary work he did. As an expert on the Shirvan folklore environment, he wrote his name in the history of folklore studies. He belongs to the generation of great folklorists who "put iron sandals on their feet and iron rods in their hands" and tried to collect and book the rich spiritual wealth of the people. The scale of his work cannot be measured by anything or compared with anyone. Such work is possible only and only thanks to living with love for the homeland, people, and passion. The collection work he carried out, the compilations he carried out, as well as his research in terms of the folklore uniqueness of the environment determine the main stream of his creative activity. Myths, legends, tales, epics, ashug stories, and the rich creative traditions of master artists are systematically explained at the level of the environment in the research of the folklore scholar.

**Keywords:** Seyfaddin Ganiyev, Shirvan ashug environment, master ashugs, Shirvan performing traditions, etc.

**Шабнам Хагвердиева**

## ВЕЛИКИЙ УЧЕНЫЙ-ФОЛЬКЛОРИСТ, ВЫДАЮЩИЙСЯ ИНТЕЛЛЕКТУАЛ СЕЙФАДДИН ГАНИЕВ

*«Старайтесь завоевывать сердца, защищать нежных, они те, кто не имеет никакой выгоды от народа».*

*Джалалуддин Руми*

**Резюме.** Есть имя, которое всегда будет помниться на историческом пути азербайджанской фольклористики, имя профессора Сейфаддина Ганиева. Он жил с миссией сохранения национальных и духовных ценностей народа своей живой деятельностью и необходимой работой, которую он делал. Как знаток фольклорной среды Ширвана, он вписал свое имя в историю фольклористики. Он принадлежит к поколению великих фольклористов, которые «надели железные сандалии на ноги и железные прутья в руки» и пытались собрать и записать богатое

духовное богатство народа. Масштаб его работы невозможно измерить ничем и сравнить с кем-либо. Такая работа возможна только и только благодаря жизни с любовью к родине, народу и страсти. Собирательная работа, составленные им сборники, а также его исследования в плане фольклорного своеобразия среды определяют основное направление его творческой деятельности. Мифы, легенды, сказания, эпосы, ашугские рассказы, богатые творческие традиции мастеров-художников системно излагаются на уровне среды в исследованиях фольклориста.

**Ключевые слова:** Сейфаддин Ганиев, ашугская среда Ширвана, мастера-ашуги, исполнительские традиции Ширвана и т. д.

Çağdaş Azərbaycan folklorşünaslığı müstəqillikdən sonra ayrıca bir mərhələni sərgiləyir. Folklor İnstitunun gördüyü böyük işlər bunun nümunəsidir. Müxtəlif region folkloru sayəsində atılan addımlar, toplama, nəşr, tədqiq sayəsində aparılan işlər milli oyanışın hadisəsi olaraq diqqət önünə gəlir. Folklorşünas S.Qəniyevin Şirvan folklor mühiti ilə əlaqədar atdığı addımlar bu prosesdə ayrıca bir səhifədir. Görkəmli ədəbiyyatşünas, dramaturq M.F.Axundov "o kəslər xoşbəxtdirlər ki, bütün hərəkət və davranışlarını vətənpərvərliyə hesablayırlar" deyirdi. Filologiya elmləri doktoru, professor Seyfəddin Həmzə oğlu Qəniyev də belə şəxsiyyətlərdən biridir.

Müasir Azərbaycan folklorşünaslığında Seyfəddin Qəniyev qədər toplama işləri aparan tədqiqatçını xatırlamaq çox çətindir, bəlkə də mümkünsüzdür. Onun çap olunan toplama və tərtibləri bunun bariz göstəricisidir. "Aşıqlar və el çairləri" (1993), "Şirvan aşıqları" (1993), "Beytüs-Səfa"nın davamçıları" (1994), "Bu yol Şirvan yoludur" (şərikli, 1994), "Şirvan folklor antologiyası" (şərikli, 1994), "Övliyalar, ziyarətgahlar, müqəddəslər və din xadimləri" (1995), "Sənətdə yaşayan ömürlər" (1995), "Dağdan  ağır elim var" (şərikli, 1996), "Şirvan qadın şairləri" (şərikli, 1996), "Şirvan folklor mühiti" (1997), "Şirvan aşıqları" (I hissə, 1997), "Şirvan alimləri – elm fədailəri" (1997), ""XX əsr Şirvan şairləri" (1997), "Şamaxı şəhdləri" (şərikli, 1997), "Şamaxı" (1998), "Aşıq şeirinin poetikası" (1999), "Şirvanın 350 şairi" (şərikli, I kitab, 1999), "Şamaxı məktəbləri, maarif fədailəri" (şərikli, 1999), "Nalə" (2000), "Adım Aşıq Şakir, mahalım Şirvan" (2001), "Dağ Kolanı – elim

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 340-346*

mənim" (2001), "Mən Abbasam, Cəyirlidi məkanım" (2002), "Beytüs-Səfa" davamçıları" (şərikli, III kitab, 2002), "1918 Şamaxı soyqırımı" (2003), "Şirvanlı Aşıq Mirzə Bilal" (2003), "El şairi Püstə Şakir qızı" (2004), "Şirvanlı Aşıq Yanvar" (2004), "Şirvanlı Aşıq Xanmusa" (2004), "Şirvanlı Aşıq Hacalı" (2005), "Şirvanın 565 şairi" (2014), "Şamaxı – Qobustan aşıqları və el şairləri" (2016), "Cəfərzadə ocağı – Əhməd Cəfərzadə" (2016) və s. kitabları ecazkar bir vurğunluğun, qüvvənin və sevginin nəticəsi olaraq meydana çıxmışdır. Hələ bu S.Qəniyevin nəşr olunan kitablarının bir hissəsidir və onun hamısını burada sıralamaq fikrində deyilik. Adları qeyd olunan kitablar folklorşünas alimin nə qədər böyük işlər görməsinin göstəricisidir.

Etiraf edək ki, Azərbaycan folklorşünaslığının keçib gəldiyi yolda lazımı qədər gərəkli işlər görülmüşdür. M.Mahmudbəyov, T.Bayraməlibəyov, Y.V.Çəmənzəminli, H.Zeynallı, E.Sultanov, V.Xuluflu, S.Mümtaz, H.Əlizadə, M.H.Təhmasib, Ə.Axundov, M.Həkimov, P.Əfəndiyev, R.Rüstəmzadə, İ.Abbaslı, S.Paşayev və s. kimi görkəmli folklorşünaslar olmuş və gördüyü gərəkli işlərlə nümunəyə çevrilmişdir. Seyfəddin Qəniyev həmin klassik folklorşünaslar nəslinin layiqli davamçısıdır. Mahmud Allahmanlı görkəmli alimin yaradıcılığını təhlil edərək yazır: "Folklorşünas S.Qəniyev Şirvan folklor mühitinin tədqiqatçısıdır. Onun Şirvan folklorunun toplanması, nəşri, tədqiqi sahəsində etdikləri bəlkə də bir institutun görə biləcəkləri qədərindədir. O, Şirvanı el-el, oba-oba gəzib dolaşmış, müdriklərin, el ağsaqqallarının, ağbirçəklərinin dizinin dibində oturmuş, onların söz boxçasını, yaddaşında olanları yazıya gətirmişdir" **(1, s. 5)**. Adını çəkdiyimiz və çəkə bilmədiyimiz kitabları bunun göstəricisidir.

Seyfəddin Həmzə oğlu Qəniyev Şamaxı mühitinin yetişdirdiyi parlaq ziyalılardandır. O, 1952-ci ildə Şamaxının Dağ Kolanı kəndində anadan olmuşdur. Şirvanın şeir-sənət mühiti onun gələcək taleyində müstəsna rol oynamışdır. Ədəbiyyat həvəsi onu Azərbaycan Dövlət Pedaqoji Universitetinin (keçmiş Lenin adına APİ-nin) filologiya fakültəsində gətirib çıxarmışdır. Təhsil aldığı müddətdə bir-birindən böyük alimlərin söhbətindən, mühazirə və seminarlarından yüksək səviyyədə bəhrələnmiş və həm də sonrakı dövrdə taleyini

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2025*
*Səh. 340-346*

müəyyənləşdirmək üçün bunlar vasitə olmuşdur. Ali məktəbi yüksək qiymətlərlə bitirən S.Qəniyev Şamaxıda müəllimlik fəaliyyətinə başlamış, müəllimlərindən öyrəndiklərini öz şagirdlərinə yüksək şövq və həvəslə mənimsətməyə çalışmışdır.

Elmə, ədəbiyyata olan sonsuz həvəs onu təzədən Azərbaycan Dövlət Pedaqoji Universitetinin aspiranturasına gətirib çıxarmışdır. "M.F.Axundovun "Kəmalüdövlə məktubları" əsərinin bədii metod və janr xüsusiyyətləri" mövzusunda namizədlik (filologiya üzrə fəlsəfə doktoru) dissertasiyası yazan S.Qəniyev mürəkkəb bir problemin aydınlaşması baxımında elmi-nəzəri mülahizələri ilə ədəbi-nəzəri fikrə (axundovşünaslığa) töhfəsini vermişdir (1992). Daha sonra o, fəaliyyətinin əsas qaynağını müəyyənləşdirən Şirvan folkloru ilə bağlı araşdırmalara qərar verir və bir-birinin ardınca çoxsaylı məqalələri, kitabları çıxır. Nəticə olaraq "Azərbaycan folklorunun regional özünəməxsusluğu: Şirvan folklor mühiti" (2002) mövzusunda doktorluq disertasiyası müdafiə edir.

Keçən əsrin 90-cı illərindən haqq dünyasına qovuşana qədər o, (16 yanvar 2023-cü ildə vəfat etmişdir) Şirvan folklor mühitini araşdırmağa kökləndi. Gördüyü böyük işlər isə bu istiqamətdə bir sonsuzluqla müşahidə olunur. Toplama, tərtib, tədqiqatçılıq fəaliyyəti **(5; 6; 7; 8; 9;)** və gördüyü savab işlər zəngin mədəniyyət beşiyimiz olan Şirvan mühitinin ucu-bucağı görünməyən ecazkarlığına köklənmişdir. Onu da əlavə edək ki, folklorşünas alimin fəaliyyəti təkcə hansısa istiqaməti araşdırmaq məqsədindən irəli gəlmir. Mühitin bütünlükdə mədəniyyət tarixini, ədəbiyyatın şifahi və yazılı qolu aspektində olanları bir araya gətirmək amalına köklənməsi və bu istiqamətdə gördüyü işlərlə diqqət önünə gəlir. Akademik B.Nəbiyev yazır: "Mən, Seyfəddin Qəniyevi tanımırdım. Amma onun bir sıra kitablarını oxumuşdum. Axırıncı kitabı – "Şirvanın 350 şairi", eləcə də doktorluq disertasiyasını çox diqqətlə oxudum. Belə qənaətə gəldim ki, Seyfəddin müəllim Şirvan folklor və ədəbi mühitini dərindən öyrənmək üçün böyük əziyyətlərə qatlanmış, bütün bölgəni payi-piyada, qarış-qarış gəzmişdir" **(2, s. 192-193)**. Seyfəddin müəllim Şirvan ədəbi-mədəni mühitinin yetişdirdiyi şəxsiyyətlərdəndir və elə üstünlüyü də bundadır. O, mühitin zənginliklərini dünyaya göz açdığı ailədən, təhsil aldığı məktəbdən,

Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, ISSN 2224-9257
Filologiya məsələləri № 6, 2025
Səh. 340-346

əlaqədə olduğu sosial mühitdən, eləcə də müəllim işlədiyi zaman ağsaqqalların, ağbirçəklərin dilindən eşitdikləri əsasında iç dünyasını zənginləşdirmiş və bu möhtəşəmliyin kitablaşmasına köklənmişdir.

Şamaxı folklor mühitini yorulmadan, usanmadan, vurğunluqla bir araya gətirən S.Qəniyevin gördüyü gərəkli işləri təhlil edən xalq yazıçısı Ə.Cəfərzadə yazır: "Mətləbə keçməzdən qabaq deyim ki, uzun illərdir ki, poeziya beşiyi, övliyalar məkanı, hər daşında tarix yaşadan Şirvanı tədqiq etməklə məşğulam. Şirvan öyrəndikcə öyrəniləsi bir diyardır. Neçə-neçə el ədəbiyyatı incilərini, şair-aşıqları qoynunda saxlayan bu qədim diyar tədqiq olunmaq baxımından yetimçilik çəkir. Hər vaxt gözü yolda, qulağı səsdə qalıb bu mahalın" **(2, s. 191)**. S.Qəniyev "gözü yolda, qulağı səsdə qalan bu mahalın" nigarançılıqlarını aradan qaldırmaqla nümunəyə çevrildi. Təkcə onu demək kifayətdir ki, mühitin yazılı ədəbiyyat qaynaqlarını araşdıraraq 565 sənətkar haqqında informativ (avtobioqrafik) məlumat verməklə elmi-nəzəri fikrin diqqətini ora yönəltdi. Bu işi ilə o bütünlükdə Azərbaycan ədəbiyyatı tarixində şərəfli yer tuta bilər.

Azərbaycan elmi-mədəni mühiti Seyfəddin Qəniyevi daha çox folklorşünas kimi tanıyır. Bütünlükdə toplayıcılıq fəaliyyəti, tərtibləri və tədqiqatları ilə bir əlçatmazlıq sərgiləyir. Aşıq Ağaməmməd, Aşıq Bilal, Aşıq Soltan, Aşıq Şamil, Aşıq Xanbala, Aşıq Qurbanxan, Aşıq Abbas, Aşıq Şərbət, Aşıq Ağalar, Aşıq Bəylər, Aşıq Barat, Aşıq Şakir, Aşıq Soltanmurad, Aşıq Pənah, Aşıq Xanmusa, Aşıq Məmmədağa, Aşıq Şərbət, Aşıq Yanvar, Aşıq Əhliman, Aşıq Ağamurad və s. onlarla sənətkarın ədəbi irsi, həyatından bilgilər məhz daha çox S.Qəniyev tərəfindən verilmişdir. Bir növ folklorşünaslığın diqqətini bu işləri ilə Şirvan mühitinə yönəltmişdir. Şirvan mühitinin regional özünəməxsusluğu kontekstində apardığı fundamental araşdırmalar bu işlərin nəticəsi olaraq diqqət önünə gəlir. Bütün bunlarla folklorşünas Seyfəddin Qəniyev adı ilə bağlanacaq bir abidə ucaltmışdır.

**Nəticə**. Folklorşünas Seyfəddin Qəniyev toplama, tərtib, nəşr sahəsində gördüyü gərəkli işləri ilə klassik ənənənin ən parlaq nümayəndələrindən biri olaraq diqqət önünə gəlir. Onun yaradıcılığının ana axarını ustad sənətkarların ədəbi irsinin geniş ictimaiyyətə çatdırılması təşkil edir. Şirvan folklor mühitini öyrənmək baxımından bir

əlçatmazlıq sərgiləyən alim təkcə aşıq yaradıcılığı baxımından gördükləri ilə məhdudlaşmır. Bütünlükdə Şirvan folklor mühitini, əfsanə, rəvayət, nağıl, dastan, atalar sözü, məsəl, mərasim folkloru, pirlər, övliyalar, inanclar baxımından bir araya gətirib kitablaşdırması ilə nümunəyə çevrilir. S.Qəniyev gördüyü gərəkli işləri ilə Şirvan folklor zənginliyi haqqında mükəmməl təsəvvür formalaşdıran tədqiqatçıdır.

## ƏDƏBİYYAT

1.Allahmanlı M., Qəni T. Şirvan vurğunu, yollar yorğunu. Bakı: Elm və təhsil, 2018, 296 s.

2. Eminov E., Qəniyev T. Bu karvanın mən olmuşam sarbanı. Bakı: Nurlan, 2007, 376 s.

3. Qəniyev S. Şirvanın 350 şairi. (toplayıb tərtib edənlər: Ə.Cəfərzadə, S.Qəniyev, M.İsmayılova). Bakı: Ünsiyyət, 1999, 224 s.

4. Qəniyev S. Şirvanın 565 şairi. Bakı: Elm və təhsil, 2014, 512 s.

5. Qəniyev S. Şirvanlı Aşıq Məmmədağa -sənət və yaradıcılıq dünyası. Bakı: 2014, 216 s.

6. Qəniyev S., Qəni T. Şamaxı-Qobustan aşıq və el şairləri. Bakı: Elm və təhsil, 2016, 160 s.

7. Qəniyev S., Qəni T. Şirvanlı Aşıq Barat. Bakı: Elm və təhsil, 2017, 180 s.

8. Şirvan aşıqları. (toplayıb tərtib edəni S.Qəniyev). Bakı: ADPU, 1993, 116 s.

9. Şirvanlı Aşıq Əhməd. Bir yumaqdı bu dünya. (tərtib edəni S.Qəniyev). Bakı: Nurlan, 2009, 154 s.

**Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Rza Xəlilov**